Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 1, 2025
Səh. 445-449

https://doi.org/10.62837/2025.1.445

dos. **MIRZƏFƏROVA RAMİDƏ . N.**
BSU
ramidam@gmail.com

"MILORAD PAVIÇIN «XƏZƏR SÖZLÜYÜ» ROMANINDA DINI MOTIVLƏR"

Açar sözlər: postmodernizm, din, simvollar,mətn və şərh
Keywords: postmodernism, religion, symbols, text and interpretation
Ключевые слова: постмодернизм, религия, символы, текст и интерпретация

Məşhur serb yazıçısı Milorad Paviçin «Xəzər sözlüyü» romanı ədəbiyyatda bir mənalı qarşılanmır. Əsər çox dolaşıq görünsə də, bir o qədər də birmərkəzli bir əsərdir. «Xəzər sözlüyü» əsərinə "lüğət" demək çətindir, çünki əsərdə daha dərin və fərqli məsələlərə – üç səmavi dinin qovşağı, mövcudatın mənbəyi və s. – çox mürəkkəb problemlərə rast gəlirik. Əsər ilk dəfə çap olunduqda, hətta " qadın" və "kişi" versiyalar olaraq iki hissəyə bölünürdü, sonralar isə iki əsərin ortaq olaraq "orta cinsli" bir əsər halına gəlməsi ortaya çıxdı. «Xəzər sözlüyü» romanının əvvəlində biz qədim Xəzər xalqının sirli tarixinə nəzər salırıq. Bu qədər güclü bir xalqın adı, ilk dəfə VII-ci əsrdə Bizansla birlikdə ərəblərlə mübarizədə çəkilir və bu, təəccüblüdür.

Xəzərlərin bu üç səmavi dinin qəbul etmə prosesi və bu haqda rəvayətlər, sanki, bəşəriyyətin din yolunu təsvir edir. Sözlüyün ən son naşiri kimi biz İones Sores Daubmanusu görürük. İones adının mənası "Tanrıdan hədiyyə" deməkdir. Bu əsər bizə Tanrını dərk etməyə və əsl özünü tanımağa yönləndirir. Burada Satana, yəni "iblis" qismində Sevast Nikonu görürük. İvrit dilində "Satan" sözü düşmən deməkdir. Biz Sevas obrazında ciddi şər əməlləri görməsək də, niyyətdə görürük. O, qeyd edir ki, bir-biri ilə ziddiyyət təşkil edən insanlardan daha təhlükəli olanlar, bir-birinə oxşar insanlardır. Yəni, eyniliklərini görməyib çalışanlar qorxulu olur və "onlar" həmin kəslərin axırına çıxma niyyətindədirlər. Bu isə insan düşmənlərinin istədiyi şeydir.

Səmavi dinlər Yaradanı və varlığın mənasını dərk edib ortaq nöqtə, qaynağı tapmaq əvəzinə, öz dinləri üzərindən kim haqlı olduğunu sübut etməyə çalışırlar. Hətta əsərdə hər dinin cəhənnəmi fərqlidir, hər dinin mənsubu öz cəhənnəminə düşmür. Bu isə absurd bir məsələdir; deməli, Tanrı lütfü və cəzası din və insan dərki səviyyəsindən yuxarıdır. Xəzər dövlətinin dağılmasının səbəbi kimi bu dinlərə keçid göstərilir. Dinlərə və onların sərhədlərinə fokuslanan insan sadə əmrə tabe olur və əsasən dərkinə, öz varlığının özəyini düşünməyə cəhd etmir. Əsərdə "Qırmızı Kitab" xristianlığın qəbul etməsinə bağlıdır. Qırmızı rəng İncildə çarmıxa çəkilən İsanın qanını təmsil edir, bu da fədakarlıq və həyat-ölüm balansını simvollaşdırır. Hər kitabda əsas obraz olaraq ən çox Atex, Xəzər şahzadəsini görürük. "Ateh"

sözünün özü ivritcə “mən” deməkdir, yəni özül anlamına gəlir. Ümumiyyətlə, səmavi dinlərin və peyğəmbərlərin çoxunun kökü qədim İbranilərə gedib çıxır. Hətta Məhəmməd Peyğəmbərin (S.A.V.) belə lap qədim əcdadı Hz. İbrahimin oğlu Hz. İsmayıla gedib çıxdığı, İslamda rəvayət olunur. İlk kitabda Atex yasaqlı hərflərlə öz gözünü həqiqətə bağlayır.

Hər postmodernist əsərdə olduğu kimi, bu əsər də simvollarla zəngindir. Belə ki, burada duz, yeddi rəqəm və güzgülər dini məna daşıyır. Duz, İncildə sədaqət və əbədiliyi təmsil edir, yeddi isə ruhani bütövlüyü simvollaşdırır. Güzgülər isə keçidi, Tanrını və bütün aləmi özündə təmsil edir. Atex güzgüdə keçmişi və gələcəyi gördüyü an, hər şeyin eyni anda o olduğunun, özünün fərd deyil, bir bütövün parçası olduğu an həyatını itirir və bütövə qarışır: “Güzgüləri şahzadənin qarşısına qoyanda o, hələ yataqda idi və göz qapaqlarındakı ölüm saçan hərfləri hələ yuduzdurmamışdı. Güzgüdə o, özünü gözübağlı vəziyyətdə gördü və elə o an da öldü. Şahzadə öz göz qapaqlarında yazılmış ölümsaçan hərfləri ilk dəfə oxuyan kimi bir göz qırpımında yox oldu. Çünki güzgülər onun ölümdən qabaq və ölümdən sonra gözünü yummağını əks etdirmişdi. Onu eyni vaxtda həm keçmişdən, həm də gələcəkdən olan hərflər öldürmüşdü.” [1, 12].

Atexdə Həvva izlərini də görürük. Xəzər Xaqanına bənzər bir məxluqun, müxtəlif insanların əzalarından düzələn məxluqun Atexin sünnətli olduğunu bildirir və tam bənzəmək üçün Xaqanın da sünnət olunmuş olduğunu deyir. Sünnət, yəhudi və müsəlmanlarda olan bir adətdir. Sünnət özü dini olaraq Tanrı ilə andlaşmanın simvolu sayılır və ilk dəfə yəhudilikdə Hz. İbrahimdə meydana çıxır. Xaqan qəfəsə Atex tərəfindən salınmış nəhəngdəx qorxaraq xristianlığı qəbul edir. Atex məxluqun alnına tüpürərək onu yox edir. Bundan başqa, Atex “Ku” adlanan bir baliğa bənzər meyvəni Məsudiyə (müsəlman) təklif edir, amma o, bunu qəbul etmir. “Ku” meyvəsi bizə cənnətdəki qadağa meyvəsini xatırladır. Və bu sözlükdə Atexin ağlında qalan yeganə söz idi. “Ku” ivrit dilində “mənimki”, “mənə məxsus” deməkdir. Yuxu motivini də hər əsərdə, hər kitabda görürük. Yazıçının yaradıcılığında yuxu və ölüm motivləri daimidir. Ölüm, kiminsə əbədi yuxusu və ya görüş yeri kimi təmsil olunur. Yuxu hər səmavi dində Yaradıcının bəndə ilə əlaqə vasitəsi, mesaj yolu və bəndə üçün öz “çərçivəsindən” çıxış qapısıdır. Kitabda sıx yer verilən məqamlardan ən əsası yuxular və "yuxu ovçuları"dır. İntihar, diri və ölü arasındakı romantika kimi fərqli mövzularda da əsərə daxildir. Paviç əsərdə bir çox istiqamətləri diqqət mərkəzinə gətirib, aydınlaşdırmağa çalışmışdır. "Yuxu ovçuları" məsələsi ən çox diqqət çəkən məqamlardan biri idi. Həmin şəxslər, bir çox insanın yuxusuna girə bilirdilər, lakin yalnız yuxu ovçularının yuxularında ölə bilərdilər. Və yuxu ovçusu bu şəxsi bir daha yuxuda görə bilməzdi.Milorad Paviç hesab edir ki, “Yuxu ovçusunun əsas məqsədi hər bir oyanışın, yuxulardan tam azad olmağın pillələri olduğunu dərk etməkdi. Əgər insan başa düşsə ki, onun hər günü kiminsə bir gecəlik yuxusudur, onun iki gözü kiminsə bir gözüdür - onda insan öz gerçəkliyindən

əsl oyanışa can atacaq ki, bu oyanış onu, hər şeyin daha aydın göründüyü mütləq gerçəkliyə, həqiqətə çıxaracaq. Məhz bu vaxt insan başa düşəcək ki, həqiqəti görənlərlə müqayisədə o, kordur, iki gözü olanlarla müqayi-sədə isə o, tək gözlüdür...” [1, 51].

Əsərin əsas məqamlarından biri də Xəzər tarixinin mərkəzi hadisəsi olan dini mübahisədir. Təqribən 861-ci ildə Xəzər hökmdarının məhkəməsində ən yaxşı dini seçmək məqsədilə yəhudilik, İslam və Xristianlıq arasında mübahisələr aparılmışdır: “Qədim xronikalarda qeyd olunur ki, bir dəfə xəzər Xaqanı qəribə yuxu görür və bu yuxunu yozmaq üçün müxtəlif ölkələrdən üç filosof çağırır. Məsələ həm də ona görə əhəmiyyətli idi ki, Xaqanın qərarına görə hansı filosof yuxunu daha düzgün yozsa, o, öz xalqıyla birgə həmin filosofun dinini qəbul edəcəkdi. Bəzi mənbələr qeyd edir ki, Xaqan bu qərarı qəbul edən kimi onun başındakı bütün tüklər bir anda töküldü və o bunun səbəbini anladı, amma artıq geriyə yol yox idi. Beləliklə, Xaqan öz yay iqamətgahında yəhudi, xristian və müsəlman missionerlərilə - ravvin, rahib və dərvişlə görüşdü...”[1, 8]

İkinci “Yaşıl Kitab” Xaqanın İslamı qəbul etməsi ilə bağlıdır. Burada da Atex İslamı dəstəklədiyi üçün İslam cəhənnəminə sığınır, lakin burada ilk yuxu yozan Xədraş onu ahəssiz edir və o,artıq yalnız fiziki deyil, ruhi olaraq da sevə bilər.Yaşıl rəng İslamda həyatı və ruhani aləmi təmsil edir. Həmçinin, işıq haqqında elmdə də yaşıl rəng orta palitrada yer aldığı üçün, bu da İslamın dinlər arasında orta mövqedə, neytral zonada və tam qovşaqda olduğunu işarə edir.Yaşıl rəng xristianlıqda da ilahi sonsuzluğu təmsil edir. Sarı kitab yəhudiliklə bağlı olsa da, digər kitabın əksinə, yəhudiliyin əsas rəngi mavidir, bu da yer ilə göyün bütövlüyünü və həyatı simvolizə edir. Sarı isə yəhudilər üçün damğalanma, hətta anti-semitik ideyanı ifadə edir. Orta əsrlərdə yəhudilərə xristian və müsəlmanlar arasında fərqlənmək üçün məcburi olaraq sarı ulduz taxdırılırdı. Həmçinin, sarı İncildə alovu, daha doğrusu, günahlarda təmizləyən alovu simvollaşdırır. Biz Xaqanın İslam dinini, islam aliminin verdiyi ağıllı cavaba əsasən qəbul etməsini, yəhudiliyi isə yəhudi nahininin onun yuxu yozumunu bəyəndiyi üçün qəbul etməsini görürük. Hər ikisində də Atex buna təkan vermir. Hər iki kitabda “niyətin yaradana əməldən əziz olduğu” əsas vurğulanır. Burada mövcudatı və Yaradanı dərk edib, sitayişin əsas mahiyyətinin özünü dərk etmək olduğu göstərilir. Niyyət içimizdəki Tanrı qığılcımından gəlir. Əməl isə dinə əsasən edilən şüurlu bir fəaliyyət, hətta bir çoxları üçün məcburiyyətə çevrilir. Biz həm "Qırmızı", həm də "Yaşıl Kitab"da ayaqqabıların çıxarılıb atılma motivini görürük. Bu həm Avramın atasında, həm də Xaqanın yuxusunda yer alır. Bu dini mənada öz günahlarını çıxarıb etiraf etməsi və Tanrının qarşısına çıxması ilə əlaqəlidir. Ümumiyyətlə, baxsaq, hər üç səmavi dində obyektlər, rənglər, yuxular və sairənin eyni bir məxrəcə – nəticəyə cəmləşdiyini görürük.

Əsər, hər üç dinin nümayəndəsi – B. Avram (xristian), Məsudi (müsəlman) və S. Koen (yəhudi) – Xəzər xalqını tapmağa, əslində, insanlığın kökünə enməyə çalışır.

Burada təsəvvüf fəlsəfəsini də görürük. Əsərdə bir çox obraz olmasına baxmayaraq, hamı əslində tək bir insan – bir bütövdür. Sadə birinin yuxusu, digərinin gerçəyidir.

Beləliklə, hər bir obraz əslində tək bir varlığın yuxusudur və o, öz gerçəkliyinə qovuşmağa çalışır. Məsələn, Avram həm Koen, həm Xaqan, həm də doktor Sukdur; Koen isə həm Avramın atası, həm oğlu Orqur, həm də İshaqdır; Məsudi həm Sablayk, həm də Dorota, Kvaş isə Müaviyyə, həmçinin doktor Suk və Koendir. Atex obrazı da öz simasında hər yuxuda özünü göstərir. Burada bir nəfər hamıdır, hamı isə bir təkə bərabər, bir bütövdür. Düşüncələr özü də bütöv bir tamaşaya xidmət edir. Əsərdə çox sayda miflərə, folklor və psevdofolklor əfsanələrinə, metafizik düşüncələrə yer verilmişdir. Roman Xəzərlər haqqında yazılmışdır. Biz bu tayfanın tarixə dayanan köklərinin var olduğuna əmin olsaq da, bəzi tədqiqatçılar Xəzərləri qondarma, yarı uydurma tayfa adlandırmışlar. Müəllif, əsərdə çox sayda uydurmalara yer versə də, onları daha mürəkkəb, bəlkə də real hala gətirmək, oxucuda maraq oyatmaq üçün bəzi məqamlarda real şəxsiyyət adlarına yer vermişdir. Milorad Paviç əsərini qadın və kişi versiyalarına bölmüşdür. Lakin bu iki versiya arasındakı fərq yalnız 17 cümlədən ibarətdir.Əsər mürəkkəblik və tapmacaya bənzərlik kimi məqamları özündə birləşdirir. Bəzi tədqiqatçılar, əsərin ziqzaq oxşarını daha məqsədəuyğun hesab edirlər. Müəllif özü də bizə, əsərin oxunma zamanı ardıcıllığın əhəmiyyətli olmadığını əsərin əvvəlində söyləmişdir.Hər bir lüğət müvafiq mədəniyyətə aid olan təmsil xüsusiyyətləri ilə seçilmişdir. Əsrin yazılma tərzini tarixlə ədəbiyyatın sərhədi kimi qiymətləndirmək olar. Yazılar əsasən üç dövrə aid göstərilir: Xəzər dövrü VII-XI əsrləri əhatə edir, lüğətin ilk tərtib edildiyi zaman XVII əsrin sonu və müasir dövr, yəni 1980-ci illərin əvvəlləri. Hər bölümdə təmsil olunan inancın "qazandığı" və qəbul edildiyi iddia edilir. Və kağan qəbul etdiyi dinə xalq da sadiq olur. Bir çox faktiki tarixi şəxsiyyət adlarına da yer verilmişdir. Müəllif, qəribə, bəzən uydurma hekayələrdən istifadə etsə də, bəzən də hekayələrə doğruluq əlavə etmişdir. Hər bir inancın nümayəndəsi Xəzər kağanının niyə öz dininin ən yaxşı olduğunu deyir və kağan da onlarla razılaşır. Və bu məqamlarda biz müəllifin bizə söyləmək istədiyi nüansları nümayəndələrin dilindən dinləyirik. Əsəri postmodernizm cərəyanının parlaq nümunəsi kimi qiymətləndirmək olar. Ümumən, əsərdə həm mətnaltı mənalar, həm də hansı mətinlərdə mənanı oxucunun axtarmalı olduğu ilə bağlı məqamlar çoxdur. Həll edilməli qətllər, yozulmalı yuxular kifayət qədər vardır. Bunlardan biri də şəhzadə Atchin tutuquşlar sürüsünə öyrətdiyi Xəzər dilinin nə olduğu sualıdır. Adın olduğu kimi, əsər bir-birinə zidd olan tarixi məsələlərlə də zəngindir.

Доц. Мирзафарова Р.Н.

РЕЗЮМЕ

"Религиозные мотивы в романе Милорада Павича «Хазарский словарь»"

Статья посвящена постмодернистскому роману сербского писателя Милорада Павича «Хазарский словарь». В статье раскрываются структура

произведения, полемика на религиозную тематику, философия творчества писателя, а также философская основа романа. История в романе «Хазарский словарь» рассматривается как литературный текст. Автор произведения предлагает каждой ситуации несколько интерпретаций, что углубляет смысл текста. Противопоставления в тексте заслуживают особого внимания. К мужскому и женскому началам у автора свое отношение. Постмодернистский дискурс у Милорада Павича своеобразен. На протяжении всего романа автор ведет дискуссии. Символика текста романа «Хазарский словарь» заслуживает особого внимания.

Ass.prof. Mizafarova Ramida

SUMMARY

"Religious Motifs in Milorad Pavic's novel 'The Khazar Dictionary'"

The article is devoted to the postmodernist novel «The Khazar Dictionary» by Serbian writer Milorad Pavic. It explores the structure of the work, polemics on religious themes, the philosophy behind the writer's creative process, and the philosophical foundation of the novel. The story in «The Khazar Dictionary» is considered as a literary text. The author offers multiple interpretations of each situation, which deepens the meaning of the text. The contrasts within the text deserve special attention. The author expresses his own views on masculine and feminine principles. Milorad Pavic's postmodernist discourse is unique. Throughout the novel, the author engages in various discussions. The symbolism in «The Khazar Dictionary» also warrants special attention.

Dos. Mirzəfərova R. N.

Xülasə

"Milorad Paviçin «Xəzər sözlüyü» romanında dini motivlər"

Məqalə serb yazıçısı Milorad Paviçin «Xəzər sözlüyü» postmodernist romanına həsr olunub. Məqalədə əsərin strukturu, dini mövzulardakı mübahisələr, yazıçının yaradıcılığının fəlsəfəsi və romanın fəlsəfi əsasları açıqlanır. «Xəzər sözlüyü» romanındakı hekayə bədii mətn kimi qəbul edilir. Əsərin müəllifi hər bir vəziyyətə bir neçə şərh təklif edir, bu da mətnin mənasını dərinləşdirir. Mətndəki təzadlar xüsusi diqqətə layiqdir. Müəllifin kişi və qadın prinsiplərinə münasibəti də maraq doğurur. Milorad Paviçin postmodernist diskursu özünəməxsusdur. Roman boyu müəllif müzakirələr aparır. «Xəzər sözlüyü» romanının simvolikası də xüsusi diqqətə layiqdir.

İstifadə olunmuş ədəbiyyat:

1. M.Paviç "Xəzər sözlüyü" Bakı, Yurd, 2005, 118 s.
2. Kaser A. Milorad Pavic. "The Dictionary of the Khazars" // Hadašot. 10. I. 1990.

Rəyçi: – Dos. Tairov V.